

# Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə»də dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Su Ehtiyatları Dövlət Agentliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 22 noyabr tarixli 525 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326; 2008, № 2, maddə 50, № 4, maddə 260, № 6, maddə 508; 2009, № 9, maddə 687, № 12, maddə 983; 2010, № 2, maddələr 83, 85; 2011, № 2, maddələr 85, 93) ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə»nin 8.1.1-ci yarımbəndinə *«Dövlət Material Ehtiyatları Agentliyi»* sözlərindən sonra *«, Su Ehtiyatları Dövlət Agentliyi»* sözləri əlavə edilsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 29 oktyabr 2012-ci il***

***№ 716***

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 oktyabr 2012-ci il, № 10, maddə 955) («VneshExpertService» LLC).***

© *«VneshExpertService» LLC*